**Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov Toronto Mərkəzinin müsahibi olub**

Mərkəzi Bankın sədri Taleh Kazımov Toronto Mərkəzinin prezidenti və baş icraçı direktoru Babək Abbaszadənin müsahibi olub. Sədr “COP29-a gedən yol” mövzusunda keçirilmiş müsahibədə ölkəmizin qlobal iqlim təşəbbüslərinə sadiqliyini vurğulayaraq Mərkəzi Bankın bu təşəbbüslərin həyata keçirilməsinə dəstək mexanizmlərindən bəhs edib.

Taleh Kazımov qlobal liderləri bir araya gətirən COP29 tədbirinin planetimizin rifahı naminə iqlim fəaliyyətini təşviq etməkdə mühüm platforma olduğunu bildirib. O, Azərbaycanın yaşıl artım ölkəsi istiqamətində müəyyən etdiyi prioritetləri vurğulayıb.

Sədr dayanıqlılıq hədəflərinə nail olunmasında maliyyə sektorunun mühüm rola malik olduğunu diqqətə çatdıraraq Mərkəzi Bankın maliyyə sisteminin yaşıllaşdırılması istiqamətində müəyyən etdiyi tənzimləyici çərçivələrdən bəhs edib.

O, Mərkəzi Bank tərəfindən Milli Taksonomiyanın hazırlanmasından bəhs edərkən bu sənədin Azərbaycanda yaşıl keçidi dəstəkləyəcək milli çərçivə olacağını vurğulayıb. Sədr maliyyə bazarlarının iştirakçılarının yaşıl və dayanıqlı investisiyaları aydın müəyyən etməklə strategiya və təşəbbüslərini kapital axınlarının dayanıqlı layihələrə yönləndirilməsinə daha yaxşı uyğunlaşdıra biləcəklərini qeyd edib.

Taleh Kazımov COP29 tədbirinə ev sahibliyi edən ölkənin Mərkəzi Bankı kimi “Dayanıqlı Maliyyə Taksonomiyalarının uyğunluğunu və müqayisəliliyini artırmaq üçün Yol Xəritəsi”nin hazırlanmasını xüsusilə vurğulayıb.

Müsahibənin tam mətni ilə tanış olmaq üçün bu linkə daxil ola bilərsiniz:

https://torontocentre.org//videos/Toronto_Centre_Interview_with_Governor_Taleh_Kazimov.pdf